# Heç kim unudulmayıb, heç nə yaddan çıxmayıb

XX əsrdə bəşəriyyət iki dünya müharibəsi ilə üzləşdi. İkinci Dünya müharibəsi əhatə dairəsinə, iştirakçı dövlətlərin sayına və müharibənin aparılması metodlarına və vasitələrinə görə birincisindən qat-qat dəhşətli idi. İtaliyada faşist və Almaniyada nasist diktaturaları nəinki bu ölkələrin özlərini, habelə bütün bəşəriyyəti təhlükə altına qoymuşdu.

Nəhayət 1941-ci ilin iyun ayının 22-də faşist Almaniyası beynəlxalq sülh müqavilələsini pozaraq sovetlər ölkəsinin üzərinə qəflətən hücum etdi. Bu müharibə Sovet İttifaqı adlı böyük bir ölkənin iqtisadiyyatını iflic etdi, yüz minlərlə şəhər və kəndi viran qoydu. Dünyaya ağalıq etmək iddiasında olan Hitler Almaniyası eyni zamanda az bir müddətdə əksər Avropa ölkələrini işğal etmişdi. İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çaitmışdır. Bu müharibədə dünyanın 61 dövlətindən 120 milyon adam iştirak etmişdir. Müharibədə ideoloji və siyasi yönümündən asılı olmayaraq 50-dən çox dövlət antifaşist koalisiyasında birləşmiş, dünyanı faşizm taunundan xilas etmişdir. Faşist bloku (Almaniya, İtaliya, Yaponiya, Macarıstan, Bolqarıstan, Ruminiya, Finlandiya) məğlub edilmiş, bu bloka daxil olan ölkələrin əksəriyyəti müharibənin gedişində onun tərkibindən çıxaraq, Almaniyaya və Yaponiyaya müharibə elan etmişlər.

Müharibə bəşəriyyətə çox böyük itkilər bahasına başa gəldi. Təqribən 50 milyon adam həlak olmuşdu. Milyonlarla insan yaralanmış, şikəst olmuş, itkin düşmüş, əsir düşərgələrində işgəncə və zülmlərə məruz qalmışdır. Minlərlə şəhər, kənd, qəsəbə xarabazarlığa çevrilmişdir.

1428 gün davam edən ikinci dünya müharibəsi başlanan gündən qələbə müjdəsi tək sovet silahlının deyil həm də ədalət və inamın birgə qələbəsinə, çox millətli sovet ailəsinin qələbə uğrunda ölüm-dirim müharibəsinin təntəsinə çevrildi.

İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar Azərbaycan xalqı da ümumi Vətənin müdafiəsinə qalxdı. Soydaşlarımız bütün tərəqqipərvər bəşəriyyət üçün qorxulu təhlükəyə çevrilmiş faşizmin taununa qarşı hədsiz nifrət qəzəblərini ön cəbhədə əsgəri rəşadəti və qəhrəmanlıqları, arxada isə fədakar əməkləri ilə nümayiş etdirdilər. Qələbənin əldə olunmasında Azərbaycan həm canlı qüvvəsi, həm də maddi resursları ilə müstəsna rol oynadı. Müharibənin ilk günlərində ölkəmiz ordu sıralarına 40 mindən çox oğlan və qız yola saldı. Elə bir kənd, elə bir ailə olmadı ki, məşum müharibə xəbəri qapısını döyməsin. Az bir müddət ərzində 186 min nəfərdən çox könüllü xalq qoşun dəstələrinə yazıldı. Respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 15 min nəfərlik hava hücumundan müdafiə dəstələri yaradıldı. 600 mindən çox azərbaycanlı cəbhəyə səfərbər olunmuşdu. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci və 223-cü Milli diviziyalar təşkil edilmişdi. Bu diviziyalar Qafqaz dağlarından Berlinədək şanlı bir döyuş yolu keçmişdilər. 100-dən çox azərbaycanlı ən yüksək hərbi ada-- Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 30 nəfər «Şərəf» ordeni, 170 min nəfər əsgər və zabit isə müxtəlif orden və medallarla təltif olunmuşdu. Böyük Vətən müharibəsi illərində istedadlı sərkərdə və komandirlərdən H. Aslanov, A. Quliyev, Z. Bünyadov, Z. Əsədov, M. Məhərrəmov, M. Hüseynzadə, generallar M. Əbilov, A. Abbasov, T. Əliyarbəyov, H. Zeynalov və başqaları öz qəhrəmanlıqları ilə xalqımızın hərbi tarixinə yeni şərəfli sətilər yazdılar. Sovet İttifaqı Qəhrəmanı adına ilk dəfə İsrafil Məmmədov layiq görülmüşdü. Bu ada iki dəfə layiq görülmüş hərbiçimiz isə Həzi Aslanov olmuşdur.

Müharibə illərində müttəfiq respublikalardan səfərbər olanlar hesabına 80 milli diviziya və briqada yaradılmışdı. Azərbaycanda təşkil olunmuş 416-cı diviziya Taqanroq uğrunda döyüşlərdə, Ukraynanın və Varşavanın azad olunmasında fəal iştirak etdi. Qafqaz dağlarının ətəklərindən Berlinin Brandenburq qapılarınadək misilsiz şücaətlərlə dolu şərəfli döyüş yolu keçmiş 416-cı diviziya düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, beş mindən artıq faşisti əsir götürmüşdü.

Müharibə illərində respublikamız ölkənin başlıca yanacaq bazasına çevrilərək orduya 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları vermişdi. Sovet Ordusunun təyyarə və tankları demək olar ki, Bakı nefti ilə işləyirdi. Azərbaycanın digər sərvətləri də cəbhə üçün sərf olunurdu. Qadınlar döyüşçülər üçün yun saplardan corab, əlcək, jaket toxuyaraq müxtəlif geyim vasitələrini Müdafiə Fonduna göndərirdilər. Kolxozçular ordunu, ərzaqla təchiz edirdilər. Taxıl, ət, süd, yağ son damlasınadək cəbhənin ehtiyaclarına yönəlmişdi.

Qəbələmizdən cəbhəyə 6 min nəfərə yaxın həmyerlimiz göndərilmiş, onlardan 1169 nəfəri qələbədən sonra geri qayıtmış, digərləri isə qanlı döyüşlərdə həlak olmuşdu. Bu gün cəbhədən sağ qayıdanlardan Qurban Ziyadov, Nurəddin Tağızadə, Nurəddin Şirinov və digərləri həyatlarını davam etdirirlər. Onlar ölkə başçısı İlham Əliyevin diqqət və qayğısından razıdırlar, yenə rayonun ictimai həyatında, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində fəal iştirak edirlər.

Bu günlərdə dünyanın əksər ölkələrində faşizm üzərində qələbənin 71 illik yubileyi təntənə ilə qeyd edilir.

Bizim veteranlarımızın arzusu odur ki, elə bu il də qələbəmizi Azərbaycanın bütövlüyünün bərpa olunması üzərində qeyd etsinlər.

**Aslan CƏLİLOV.**

---

Ağsaqqallarımız

# 90 yaşlı Nurəddin baba

Bəşəriyyət mədəni həyata qədəm qoyduğu vaxtdan bəri ağsaqqal-ağbirçəklərimizə daim hörmət və ehtiram edilir. Ocağımızın istisinin daha çox olması onların hesabınadır. Məclisimizin ən mötəbər yeri məhz böyüklərə məxsusdur. Xoş günlərimizin yaraşığı, dərdli anlarımızın ümüd, pənah yeridirlər. Sözümün kəsəri, yolumuzun işığıdır tədbirli, ağıllı ahıllarımız, müdriklərimiz. Belə ahıllarımızdan biri də rayonumuzun sayılıb-seçilən ağsaqqallarından olan Qəbələ Şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Şirinovdur.

O, qədim Qəbələmizin qoynunda böyümüş, onun istisinə-soyuğuna vərdiş etmiş, ömrünü öz yurduna ailəsinə, övladlarına həsr etmişdir. Ailəsinin bütövlüyünü heç nəyə dəyişməmiş, soy kökünün müqəddəsliyini qoruyub saxlamışdır. Ömrünün ən müdrik yaşındadır bu el ağsaqqalı. 2016-cı il mayın 15-də 90 yaşı tamamlanır. Hər ilin may ayında uşaqları, nəvələri, nəticələri Nürəddin babanın ad gününü qeyd edirlər.

Bu gün onun 12 nəvəsi, 10 nəticəsi var. Onların hər birinin sevimlisidir, Nurəddin baba. Övladları bir yerə toplaşanda ömür gün yoldaşı, cavan ikən dünyasını dəyişmiş Turac müəllimə ilə birgə keçirdiyi həyat yolundan, Vətənə, torpağa vurğunluğundan, dövlətimizə və dövlətçiliyimizə sadiqliyindən, dinimizin, adət-ənənələrimizin müqəddəsliyindən ürək dolusu və fəxrlə söz açır.



Mən də bu söhbətləri eşidib qulaq asanlardan biri oldum. Bu müdrik insanın söylədiklərini qısaca oxuculara çatdırmağı qərara aldım.

Nurəddin baba 1926-cı ilin 15 mayında Qəbələ rayonunun Mıxlıqovaq kəndində kəndli ailəsində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra yaşının az olmasına baxmayaraq 1945-ci ildə könüllü olaraq ordu sıralarına getmişdir. Orduda olduğu müddətdə komandirlər kursunda təhsilini davam etdirmişdir. Bu zaman Böyük Vətən Müharibəsi başa çatsa da Sovet Ordusunun Baltikyanı respublikalarda faşist tör-töküntülərinə qarşı apardığı əməliyyatlarda Nurəddin Şirinovun xidmət etdiyi hərbi hissə də fəal iştirak edirdi.

O, 1945-ci ildə döyüşlərdə ağır yaralanır. Fədakar həkimlərin səyi nəticəsində Nurəddin Şirinov yenidən hərbi əməliyyatlara qatılır. 1950-ci illərin əvvəllərində Baltikyanı respublikaların meşələrində məskən salmış faşist tör-töküntülərinə qarşı Sovet Ordusunun əməliyyatı müvəffəqiyyətlə başa çatır. Nurəddin Şirinov ordudan ehtiyata buraxılır.

1920-ci ildə vətənə qayıdan Nurəddin baba Qəbələ Rayon Maliyyə Şöbəsində inspektor vəzifəsində işə başlayır. Həmin il ailə qurur. 1956-cı ildə Qəbələ Rayon Mədəniyyət Şöbəsinin müdiri, 1957-ci ildə irəli çəkilərək rayon partiya komitəsində təlimatçı təyin olunmuşdur. Bakı Ali Partiya Məktəbində təhsil almışdır.

1961-ci ildə Qəbələ Rayonu Partiya Komitəsinin orqanı olan yerli qəzetdə əməkdaş, 1972-ci ildən həmin qəzetin kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1980-ci ildə rayon kolxoz bazarının müdiri vəzifəsinə təyin olunmuşdur. 1988-ci ildə təqaüdə çıxmışdır. İşlədiyi və orududa xidmət etdiyi müddətdə müxtəlif orden və medallarla təltif olunmuş, mükafatlandırılmışdır.

Nurəddin Şirinovun rayonumuzun keçmişini, o zamanki insanların həyatını əks etdirən xatirələri çoxdur. Onun söhbətlərinə saatlarla yorulmadan qulaq asmaq mümkündür. Bu, bizim hər birimizə keçmişimizi yaxşı tanımaq imkanı verir. Allah böyüklərimizi həyatımızdan əksik etməsin. Elə sizi də, Nurəddin baba. Arzu edirik ki, elə 100 yaşında da belə gümrah və sağlam olasınız.

**Fərman ƏZİZLİ,**
**təqaüddə olan əməkdar müəllim.**

---

# “Yaz həyəti” layihəsi uğurla davam edir

Azərbaycan Respublikası Təhsil Nazirliyi, IDEA İctimai Birliyi və “Bir” Tələbə-Könüllü Proqramı çəçivəsində məktəblərin həyətyani sahələrinin yaşıllaşdırılması məqsədilə “Yaz həyəti” adlı layihənin icrası uğurla davam edir. Respublikanın şəhər və rayonlarında həyata keçirilən bu layihə çərçivəsində təhsil müəssisələrinin həyətyanı sahələrinin təmizlənməsi, yaşıllıqların salınması, ağacların gövdələrinin əhənglənməsi və digər işlər nəzərdə tutulub.

Belə tədbirlərdən biri Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədrisi Mərkəzində təşkil edilmişdir. Mərkəzin pedaqoji kollektivinin və şagirdlərin böyük həvəslə qatıldığı yaşıllaşdırma aksiyasında təhsil müəssisəsinin həyətyanı sahəsində 100-dən artıq “eldar şamı” tingləri əkilmiş, ərazidə təmizlik və abadlıq işləri aparılmışdır.

Aksiya təhsil müəssisələrinin ekoloji vəziyyətinə və təhsil alanların sağlamlığına müsbət təsir göstərməklə yanaşı, məktəbli və tələbələrin ekoloji biliklərinin dərinləşməsinə, onlarda təbiətə qayğıkeş münasibətin formalaşmasına töhfə verəcəkdir.

**«Qəbələ».**